

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

**Təsisçi:** ***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti***

Sayı: 128 (23.770)

*16 iyul 2021-ci il, cümə*

***Gündəlik ictimai-siyasi qəzet***

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## “Naxçıvan Toxumçuluq Mərkəzi” publik hüquqi şəxsin yaradılması haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fərmanı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. “Bərəkət Toxumçuluq” Məhdud Məsuliyyətli Cəmiyyətinin əsasında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tabeliyində “Naxçıvan Toxumçuluq Mərkəzi” publik hüquqi şəxsi yaradılsın.

2. “Naxçıvan Toxumçuluq Mərkəzi” publik hüquqi şəxsin Nizamnaməsi” təsdiq edilsin (əlavə olunur).

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 15 iyul 2021-ci il*

## Ə.B.Əhmədovun “Naxçıvan Toxumçuluq Mərkəzi” publik hüquqi şəxsin direktoru təyin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Əbülfət Bayram oğlu Əhmədov “Naxçıvan Toxumçuluq Mərkəzi” publik hüquqi şəxsin direktoru təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 15 iyul 2021-ci il*

## “Əməkdar rəssam” fəxri adının verilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında rəssamlıq sənətinin inkişafı sahəsində səmərəli fəaliyyətlərinə görə:

Əzimbəyova Leyla Behruz qızına

Qədimov Rafael Sabir oğluna

Məmmədov Sabir Duman oğluna – **“Əməkdar rəssam”** fəxri adı verilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 15 iyul 2021-ci il*

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 15 iyul tarixli Fərmanı ilə təsdiq edilmişdir***

# “Naxçıvan Toxumçuluq Mərkəzi” publik hüquqi şəxsin NİZAMNAMƏSİ

### 1. Ümumi müddəalar

1.1. “Naxçıvan Toxumçuluq Mərkəzi” publik hüquqi şəxsi (bundan sonra – Mərkəz) Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin tabeliyində fəaliyyət göstərən, muxtar respublikada kənd təsərrüfatı məhsulları istehsalçılarını yerli şəraitə uyğun yüksək məhsuldar bitki sortlarının toxumları ilə təmin edən və toxumçuluq sahəsində dövlət siyasətini həyata keçirən qurumdur.

1.2. Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını və qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, bu Nizamnaməni, digər normativ-hüquqi aktları rəhbər tutur.

1.3. Mərkəz öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən dövlət və yerli özünüidarəetmə orqanları və muxtar respublikada qeydiyyatdan keçən qeyri-hökumət təşkilatları, digər hüquqi və fiziki şəxslərlə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. Mərkəz ümumdövlət və ictimai əhəmiyyət daşıyan fəaliyyətlə məşğul olur.

1.5. Mərkəzin müstəqil balansı, əmlakı, xəzinə və bank hesabları, öz adı həkk olunmuş möhürü, müvafiq ştampı və blankı vardır.

1.6. Mərkəz Naxçıvan şəhərində yerləşir.

### 2. Mərkəzin fəaliyyət istiqamətləri

2.0. Mərkəzin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.0.1. toxumçuluq sahəsində dövlət siyasətinin həyata keçirilməsində iştirak etmək;

2.0.2. muxtar respublikada toxumun istehsalını, tədarükünü, saxlanmasını və satışını təmin etmək;

2.0.3. kənd təsərrüfatı məhsulları istehsalçılarının yüksək məhsuldar bitki sortlarının toxumları ilə təchiz olunması ilə bağlı tədbirlər görmək;

2.0.4. daxili bazarda toxum çatışmazlığının və qiymət artımının qarşısının alınmasında iştirak etmək;

2.0.5. müvafiq sahədə xarici təcrübəni öyrənmək və tətbiq etmək;

2.0.6. Mərkəzin Nizamnaməsində müəyyən edilən digər istiqamətlərdə fəaliyyət göstərmək.

### 3. Mərkəzin vəzifələri və hüquqları

3.1. Mərkəz, bu Nizamnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.1.1. dövlət reyestrinə daxil edilmiş müxtəlif kənd təsərrüfatı bitki sortları üzrə toxumların istehsalı, tədarükü, idarə olunması və satışı ilə bağlı təkliflər hazırlamaq;

3.1.2. muxtar respublikanın torpaq-iqlim şəraitinə uyğun toxum istehsalını və tədarükünü həyata keçirmək;

3.1.3. muxtar respublikanın yüksək məhsuldarlığa malik yerli toxum fondunu yaratmaq, bu məqsədlə elmi, aqrotexniki və təşkilati tədbirlər görmək;

3.1.4. toxum ehtiyatlarının yaradılması məqsədilə istehsal və tədarük olunacaq toxumun çeşidi, həcmi və hər təsərrüfat ili üzrə satışı barədə təkliflər hazırlayaraq aidiyyəti üzrə təqdim etmək;

3.1.5. muxtar respublikada fəaliyyət göstərən elmi-tədqiqat müəssisələri ilə birlikdə yerli toxum sortlarını araşdırmaq, bərpa etmək və yaymaq;

3.1.6. toxumun keyfiyyətli və təhlükəsiz saxlanılmasına nəzarət etmək, satışını təşkil etmək;

3.1.7. orta bazar qiymətləri nəzərə alınmaqla toxum satışı barədə kütləvi informasiya vasitələrində elanlar dərc etdirmək;

3.1.8. istehsal və tədarük edilən toxumların dövlət standartlarına uyğun olaraq sortlar və reproduksiyalar üzrə qablaşdırılmasını və etiketləşdirilməsini təmin etmək;

3.1.9. Mərkəzə tədarük edilmiş toxumun yenidən işlənilməsini (toxumun qurudulması, kimyəvi və bioloji preparatlarla işlənilməsi, soyudulması, təmizlənməsi və s.) həyata keçirmək;

3.1.10. təbii itkilər (quruma, yerdəyişmə və digər səbəblərdən yaranan itkilər nəzərdə tutulur) nəticəsində Mərkəzdə saxlanılan toxumun miqdarında azalma barədə aidiyyəti üzrə məlumat vermək və müvafiq qaydada yenisi ilə əvəz olunmasını təmin etmək;

3.1.11. Mərkəzdə saxlanan toxumun sığortalanmasını təşkil etmək;

3.1.12. dövlət reyestrinə daxil edilmiş yüksək məhsuldar bitki sortlarının toxumlarının istehsal edilməsi ilə bağlı təkliflər hazırlamaq;

3.1.13. daxili bazarda toxum çatışmazlığının, habelə qiymət artımının qarşısının alınması sahəsində təkliflər hazırlamaq və tədbirlər həyata keçirmək;

3.1.14. qabaqcıl təcrübəni nəzərə almaqla, müvafiq sahədə elmi-texniki nailiyyətlərin tətbiqini təmin etmək;

3.1.15. Mərkəzin vəsaitindən, kredit, qrant və digər maliyyə vəsaitindən təyinatı üzrə səmərəli istifadə olunmasını təmin etmək;

3.1.16. Mərkəzin fəaliyyəti ilə bağlı daxil olan ərizə və şikayətlərə baxmaq və qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.1.17. Mərkəzin Nizamnaməsi ilə müəyyən edilmiş digər vəzifələri yerinə yetirmək.

3.2. Öz vəzifələrini yerinə yetirmək üçün Mərkəzin aşağıdakı hüquqları vardır:

3.2.1. fəaliyyət istiqamətlərinə aid məsələlərlə bağlı araşdırmalar aparmaq;

3.2.2. dövlət orqanlarına və qurumlarına, yerli özünüidarəetmə orqanlarına, hüquqi və fiziki şəxslərə zəruri məlumatlar (sənədlər) barədə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

3.2.3. tədarük üçün təklif olunan toxumun keyfiyyəti ilə bağlı sənədləri satıcıdan (malgöndərəndən) tələb etmək və toxumun partiyalarına baxış keçirmək;

3.2.4. toxumçuluq sahəsində keçirilən konfranslarda, simpoziumlarda, sərgilərdə iştirak etmək;

3.2.5. fəaliyyət istiqamətləri üzrə rəy və təkliflər vermək, təhlillər və ümumiləşdirmələr aparmaq, seminarlar keçirmək və maarifləndirici materiallar hazırlamaq;

3.2.6. Mərkəzin Nizamnaməsi ilə müəyyən edilmiş digər hüquqları həyata keçirmək.

### 4. Mərkəzin idarə olunması

4.1. Mərkəzin fəaliyyətinə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən Direktor rəhbərlik edir. Direktor Mərkəzə həvalə olunmuş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə cavabdehdir.

4.2. Direktorun Naxçıvan Muxtar Respublikasının Baş naziri tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən müavini vardır. Direktorun müavini, Direktorun ona həvalə etdiyi vəzifələri yerinə yetirir və bunun üçün şəxsən məsuliyyət daşıyır.

4.3. Direktor aşağıdakı vəzifələri yerinə yetirir:

4.3.1. Mərkəzin fəaliyyətini təşkil edir və Mərkəzi təmsil edir;

4.3.2. Mərkəzin fəaliyyətinə dair illik hesabatı hazırlayaraq aidiyyəti üzrə təqdim edir;

4.3.3. müəyyən edilmiş struktur, əməkhaqqı fondu və işçilərin say həddi daxilində Mərkəzin işçilərini vəzifəyə təyin və vəzifədən azad edir, onlar barəsində həvəsləndirmə və intizam tənbehi tədbirləri görür;

4.3.4. Mərkəzin əmlakından bu Nizamnamədə nəzərdə tutulmuş məqsədlərə uyğun istifadə olunmasını təmin edir;

4.3.5. Mərkəzin büdcəsinin icrasına nəzarət edir;

4.3.6. Mərkəzin fəaliyyət istiqamətləri üzrə dövlət sirrinin, habelə məxfilik rejiminin qorunması üçün zəruri tədbirlər görür;

4.3.7. Mərkəzin fəaliyyətinin təşkili ilə əlaqədar icrası məcburi olan sərəncam və əmrlər verir;

4.3.8. bu Nizamnamə ilə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində Mərkəzin adından əməliyyatlar aparır, müqavilələr bağlayır və onların yerinə yetirilməsini təmin edir;

4.3.9. bu Nizamnamə ilə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirir.

### 5. Mərkəzin əmlakı və maliyyə fəaliyyətinin əsasları

5.1. Mərkəzin əmlakı təsisçinin verdiyi əmlakdan, həmçinin dövlət büdcəsindən ayrılan vəsaitdən, fəaliyyətindən əldə olunmuş gəlirdən, qrantlardan, cəlb edilən investisiyalardan və qanunla qadağan edilməyən digər vəsaitdən formalaşır.

5.2. Mərkəz öz əmlakından yalnız Nizamnaməsində müəyyən olunmuş məqsədlərə uyğun istifadə edir. Mərkəz balansında olan dövlət əmlakına münasibətdə səlahiyyətlərini müvafiq qanunvericiliklə müəyyən edilmiş qaydada həyata keçirir.

### 6. Mərkəzin fəaliyyətinə nəzarət

Mərkəz fəaliyyətinə dair illik hesabatı Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə təqdim edir.

### 7. Mərkəzdə uçot və hesabat

7.1. Mərkəz qanunvericiliklə publik hüquqi şəxslər üçün müəyyən edilmiş qaydada mühasibat uçotu aparır, maliyyə hesabatlarını tərtib və təqdim edir.

7.2. Mərkəz qanunvericiliyə uyğun olaraq statistik hesabatları tərtib və təqdim edir.

### 8. Mərkəzin ləğvi və yenidən təşkili

Mərkəzin ləğvini və yenidən təşkilini Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri həyata keçirir.

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti iyul ayının ilk 15 günü ərzində bir sıra qərarlar qəbul etmişdir. Belə ki, Nazirlər Kabinetinin 2021-ci il 6 iyul tarixli Qərarı ilə "Naxçıvan Musiqi Kollecinə müəllimlərin işə qəbulu Qaydaları" təsdiq edilmişdir. Həmin Qaydaya əsasən müəllimlərin işə qəbulu müsabiqəsində ali təhsil müəssisəsini bitirmiş və dövlət nümunəli təhsil sənədi (diplom) və ya ali təhsil müəssisəsini bitirmə haqqında sənəd (arayış) almış, yaxud xarici ölkədə aldığı ali təhsil sənədinin kvalifikasiyası qanunvericiliklə müəyyən edilmiş qaydada tanınmış Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər. Test imtahanında hər bir namizədə, ümumilikdə, 80 olmaqla, ixtisas üzrə 70, informasiya və kommunikasiya texnologiyalarına aid 10 test tapşırığı təqdim edilir və namizədlərə test tapşırıqlarının yerinə yetirilməsi üçün 120 dəqiqə vaxt verilir.

Bundan əlavə, Nazirlər Kabinetinin 2021-ci il 8 iyul tarixli Qərarı ilə "STEAM Təlim-Tədris Mərkəzinin Nizamnaməsi" təsdiq edilmişdir. Nizamnaməyə əsasən mərkəzdə təlim-tədris prosesi elm, texnologiya, mühəndislik, incəsənət və riyaziyyatdan ibarət 5 fənn arasında keçidi təmin edən STEAM təhsili proqramları əsasında həyata keçirilir. STEAM təhsilinin əhatə etdiyi elm sahələri üzrə istedadı ilə fərqlənən uşaq, şagird və tələbələr nazirliyin müəyyən etdiyi qaydada mərkəzə cəlb olunur.

Nazirlər Kabinetinin 2021-ci il 9 iyul tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında könüllü tibbi sığorta şəhadətnaməsinin forması və onun tətbiqi Qaydaları" təsdiq edilmişdir. Müvafiq Qaydaya uyğun olaraq könüllü tibbi sığorta şəhadətnaməsi sığortaçı tərəfindən hər bir sığortaolunana könüllü tibbi sığorta müqaviləsi ilə müəyyən edilmiş qaydada verilir. Könüllü tibbi sığorta şəhadətnaməsi vahid formada təsdiq edilir və Naxçıvan Muxtar Respublikasının ərazisində qüvvədədir. Sığortaolunanlar tibbi yardım üçün tibb müəssisələrinə müraciət etdikdə könüllü tibbi sığorta şəhadətnaməsi ilə birlikdə şəxsiyyəti təsdiq edən sənədi təqdim etməlidirlər.

Həmçinin Nazirlər Kabinetinin 2021-ci il 12 iyul tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasının Gigiyena və Epidemiologiya Mərkəzi tərəfindən göstərilən ödənişli tibbi xidmət növlərinin qiymət cədvəli" təsdiq edilmişdir.

Eyni zamanda Nazirlər Kabinetinin 2021-ci il 14 iyul tarixli Qərarı ilə "Koronavirus infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2020-ci il 21 avqust tarixli 145 nömrəli Qərarında dəyişiklik edilmişdir. Müvafiq dəyişikliyə görə koronavirus infeksiyası ilə əlaqəli əmək şəraitinə görə dövlət tibb müəssisələrində çalışan işçilərin əməkhaqlarına müddətli əlavənin ödənilmə müddəti 2021-ci il avqust ayının 1-dək uzadılmışdır.

Qeyd olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində (*www.huquqiaktlar.nakhchivan.az*) tanış olmaq mümkündür.

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin altıncı çağırış beşinci sessiyasında qarşıya qoyulan vəzifələr və yarım ilin yekunları müzakirə edilib



Altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin beşinci sessiyasından irəli gələn vəzifələr və 2021-ci ilin I yarım ilində polis orqanlarının cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın və təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətinin nəticələrinə dair Naxçıvan Muxtar Respublikasının Daxili İşlər Nazirliyində keçirilən kollegiya iclasını daxili işlər naziri, general-leytenant Fazil Ələkbərov giriş sözü ilə açaraq geniş məruzə edib.

Bildirilib ki, 2021-ci ilin I yarım ili muxtar respublikanın ictimai-siyasi və sosial həyatına müsbət təsir göstərən əlamətdar hadisə ilə yadda qalıb. Belə ki, məhz Vətən müharibəsindəki tarixi Qələbədən sonra ümummilli lider Heydər Əliyevin ilk doğum günündə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri əhali arasında yüksək əhval-ruhiyyə yaratmaqla yanaşı, muxtar respublikanın ölkəmizin və regionun iqtisadi-siyasi həyatında nə qədər önəmli olmasını bir daha dünyaya bəyan edib.

Vurğulanıb ki, 2021-ci ilin I yarım ili ərzində muxtar respublika ərazisində qeyri-aşkar şəraitdə törədilmiş cinayət hadisələrinin isti izlərlə açılması və cinayət törətməkdə təqsirli bilinərək axtarışı elan olunmuş şəxslərin tutulması 100 faiz təmin edilib, yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən və ya insan alverinə qarşı mübarizə sahəsində heç bir cinayət faktı qeydə alınmayıb. Eyni zamanda borclu fiziki şəxslərin və cavabdehlərin axtarışının təşkili istiqamətində 116 nəfər şəxsə axtarış işi açılaraq həmin şəxslərin hamısı tutulub və axtarış işinin göstəricisi 100 faiz təmin olunub.

Diqqətə çatdırılıb ki, muxtar respublikada narkotiklərin qanunsuz dövriyyəsi və narkomanlıqla mübarizə sahəsində həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində 1 cinayət və 12 inzibati fakt aşkar edilib, vətəndaşlardan 130 ədəd müxtəlif növ silah və xeyli sayda döyüş sursatı təhvil götürülüb.

Bu dövrdə vətəndaş-polis münasibətlərinin qurulmasında, eləcə də ictimai asayişin tənzimlənməsində əsas amil olan polis sahə inspektorlarının fəaliyyəti də diqqət mərkəzində saxlanılıb, işin günün tələbləri səviyyəsində qurulması istiqamətində yeni metodlar tətbiq edilib. Əməkdaşlar tərəfindən təhsil müəssisələrində müxtəlif mövzularda 314 dəfə profilaktik söhbət aparılıb, Naxçıvan şəhəri, Şərur, Babək, Ordubad, Culfa və Sədərək rayonları ərazisində fəaliyyət göstərən orta məktəblərdə 86 şagirdə şəxsiyyət vəsiqələri təntənəli surətdə təqdim edilib.

Vətəndaş məmnunluğunun təmin edilməsi çərçivəsində Azərbaycanın digər bölgələrində yaşayan muxtar respublika sakinlərinin biometrik şəxsiyyət vəsiqəsi ilə təmin edilməsi məqsədilə hesabat dövründə Bakı şəhərinə ezam olunmuş aidiyyəti xidmət əməkdaşları tərəfindən 4098 nəfərə biometrik şəxsiyyət vəsiqəsi verilib.

Nazir 2021-ci ilin I yarım ilində cinayətkarlığa qarşı mübarizə, ictimai qayda və ictimai təhlükəsizliyin qorunması sahəsində əldə edilən uğurlarla yanaşı, bəzi xidmət sahələrinin fəaliyyətində nöqsanlar müşahidə olunmasını da diqqətə çatdırıb.

Vurğulanıb ki, cinayətkarlığa qarşı mübarizə və ictimai asayişin təmini sahəsində Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən qarşıya qoyulan vəzifələr, əməliyyat-xidməti fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı tələb və tapşırıqlar bundan sonra da tam həcmdə yerinə yetiriləcək, sabitliyin, əmin-amanlığın, dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunması təmin edilərək Naxçıvanın cinayətsiz region statusu qorunub saxlanılacaqdır.

Sonra məruzə ətrafında müzakirələr olub. Nazirliyin digər xidmət rəisləri və ərazi polis orqanlarının rəisləri görülən işlərlə bağlı məlumat veriblər.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyində keçirilən kollegiya iclasında nazir Rəhman Məmmədov məruzə edərək bildirmişdir ki, hesabat dövründə iki müəllim "Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi" fəxri adı ilə təltif olunmuşdur. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin müvafiq Sərəncamı ilə təhsil və şahmat sahəsində fərqlənən 2 şagirdin adı Naxçıvan Muxtar Respublikasının Gənc İstedadlarının "Qızıl kitabı"na yazılmış, onlar Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin xüsusi aylıq təqaüdünə layiq görülmüşlər.

Diqqətə çatdırılmışdır ki, 2021-ci ilin birinci yarısı təhsildə tətbiq edilən innovasiyalarla yadda qalmışdır. Belə ki, Televiziya və Radio Verilişləri Redaksiyası Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyinə verilmiş, 2021-ci ilin yanvar ayının 1-dən etibarən Televiziya və Radio Verilişləri Redaksiyası muxtar respublikada həyata keçirilən təhsil siyasətinə, təhsil quruculuğuna, cəmiyyətin elm və təhsil üzrə ümumi maraqlarının təmin edilməsinə yönəlmiş televiziya və radio proqramlarının yayımına başlamışdır. Bununla yanaşı, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin STEAM təhsil metodunun muxtar respublikada tətbiqi ilə bağlı verdiyi tapşırığa uyğun olaraq 15 təhsil müəssisəsində STEAM kabinələri yaradılmış, ilk dəfə olaraq bu metod əsasında şagirdlərin hazırladıqları layihələrin texnosərgisi keçirilmişdir. Məruzədə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikasında STEAM təhsil metodunun tətbiqi ilə bağlı tədbirlər haqqında" 2021-ci il 7 iyun tarixli Sərəncamın icrası istiqamətində görüləcək işlər barədə də məlumat verilmişdir.

Nazir təhsildə aparılan yeni struktur dəyişikliklərindən də danışaraq bildirmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 19 mart tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan Naxçıvan Texniki Peşə və Sürücülük Məktəbi publik hüquqi şəxslərə çevrilmişdir. Bununla yanaşı, hesabat dövründə Təhsil Nazirliyinin tabeliyində fəaliyyət göstərən təhsil müəssisələrində 186 idman klubu yaradılmış, "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələri (xəritələr)" kitabı hazırlanmışdır.



Hesabat dövründə 5412 müəllim sertifikasiyaya, 687 müəllim isə müxtəlif təlim, konfrans və kurslara cəlb olunmuş, müəllimlərin işə qəbulu ilə bağlı keçirilən müsabiqədə uğurlu nəticə göstərən 47 müəllim işlə təmin edilmiş, 2021-2022-ci tədris ili üçün 214 yer müsabiqəyə çıxarılmışdır.

Qeyd edilmişdir ki, bəhs olunan dövrdə keçirilən VI və VII sinif şagirdləri arasında Respublika fənn müsabiqələrində 36 şagird, Respublika fənn olimpiadalarında isə 26 şagird qalib olmuşdur.

Buraxılış imtahanlarının nəticələri haqqında da danışan təhsil naziri qeyd etmişdir ki, muxtar respublika şagirdləri buraxılış imtahanlarında fəallıq və uğurlu nəticə göstərmişlər. Tədrisdə və buraxılış imtahanlarında əldə etdikləri nəticələrə görə məzunlardan 17-si "Qızıl", 17-si "Gümüş" nişana, 41-i isə fərqlənmə attestatına, IX siniflər üzrə isə 123 şagird fərqlənmə attestatına layiq görülmüşdür.

Sonra məruzə ətrafında çıxışlar olub.

* * *



Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində keçirilən kollegiya iclasını xidmətin rəisi, III dərəcəli dövlət miqrasiya xidməti müşaviri Şahin Nəbiyev açaraq geniş məruzə ilə çıxış edib. Bildirib ki, xidmətin fəaliyyət istiqamətlərində prioritet yer tutan qanunsuz miqrasiyaya qarşı mübarizə tədbirləri I yarım il ərzində də uğurla həyata keçirilib. Belə ki, həyata keçirilən tədbirlər zamanı muxtar respublika ərazisində qeydiyyatsız olan, qanunsuz yaşayan, qanunsuz əmək fəaliyyəti ilə məşğul olan, habelə müvəqqəti yaşamaq üçün icazə vəsiqəsini itirən 77 əcnəbi aşkarlanıb. Həmçinin miqrasiya sahəsində qanunvericiliyin tələblərini pozmuş 1 əcnəbi öz ərizəsi əsasında könüllü olaraq xidmətin Qanunsuz miqrantların saxlanılması mərkəzində saxlanılıb.

Vurğulanıb ki, hesabat dövründə əcnəbilərin olduğu yer üzrə qeydiyyatı, müvəqqətiolma müddətinin uzadılması, müvəqqəti və daimi yaşama, eləcə də iş icazələrinin verilməsi, vətəndaşlıq məsələləri və xidmətin səlahiyyətlərinə aid olan digər məsələlərlə bağlı, ümumilikdə, xidmətə 2096 müraciət daxil olub. Həmin müraciətlərdən 1306-sı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyatı ilə bağlı olub.

Diqqətə çatdırılıb ki, I yarım il ərzində Dövlət Miqrasiya Xidmətinin e-mail ünvanına və Elektron Hökumət Portalına, ümumilikdə, 529 müraciət daxil olub, hər biri xidmət tərəfindən dəqiq və operativ qaydada cavablandırılıb. Həmçinin hesabat dövründə xidmətə əcnəbilərə Azərbaycan Respublikasında müvəqqəti yaşamaq üçün icazənin verilməsi ilə bağlı 435, daimi yaşamaq üçün icazənin verilməsi məqsədilə 3, müvəqqəti yaşama icazəsinin yenidən rəsmiləşdirilməsi ilə bağlı 9, əcnəbilərin Naxçıvan Muxtar Respublikasında haqqıödənilən əmək fəaliyyəti ilə məşğul olması üçün iş icazəsinin verilməsi məqsədilə 109, Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyətin müəyyənləşdirilməsi ilə əlaqədar isə 140 müraciət daxil olub. Müraciətlərin icrası mövcud qanunvericiliyə uyğun olaraq həyata keçirilib.

Muxtar respublikada reallaşdırılan çoxşaxəli, uğurlu siyasətin nəticəsi olaraq I yarım il ərzində Azərbaycan Respublikasının vətəndaşlığına qəbulla bağlı 3 müraciət daxil olub. Hazırda həmin müraciətlər icra mərhələsindədir.

Sonra məruzə ətrafında çıxışlar dinlənilib.



Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyində cari ilin birinci yarısının yekunlarına dair kollegiya iclasını ekologiya və təbii sərvətlər naziri Mayis Əliyev açaraq məruzə ilə çıxış edib. Bildirilib ki, hesabat ilinin yaz əkin mövsümündə, ümumilikdə, 283 hektar sahədə meşəsalma, meşəbərpa işləri aparılıb, yeni meyvə bağları salınıb. Aparılan əkin işlərində, ümumilikdə, 175000 ədəd meyvə, meşə, həmişəyaşıl ting, üzüm, bəzək və gül kolları əkilib. 2021-ci ildə muxtar respublika ərazisində aparılan yaşıllaşdırma tədbirləri zamanı Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən 182,2 hektar olmaqla, ümumilikdə, 283 hektar sahədə meşəsalma, meşəbərpa işləri aparılıb, yeni meyvə bağları salınıb.

Vurğulanıb ki, muxtar respublika ərazisində aparılan yaşıllaşdırma tədbirlərində tingə olan tələbatın davamlı təmin edilməsi məqsədilə 2 hektar ərazidə toxmacarlıq və qələmkökləndirmə sahələri yaradılıb, tinglik təsərrüfatlarında növ müxtəlifliyi diqqətdə saxlanılıb, həmçinin təcrübə məqsədilə əkinlər aparılıb. Mövsüm ərzində 7650 üzüm, 7400 iydə, 2200 çinar qələmləri əkilib, bərpa işlərinin fasiləsiz aparılması məqsədilə dibçəkdə 3060-dan artıq ting yetişdirilib, 573 cır meyvə ağacına calaq vurulub.

Diqqətə çatdırılıb ki, 130 hektar sahədə toxumla əkin aparılıb, 1300 kiloqram həmərsin, yemişan, badamça, iydə toxumları əkilib.

Qeyd olunub ki, muxtar respublika ərazisində yaz mövsümündə 7 hektarı üzüm olmaqla, 72 hektar sahədə meyvə bağı, yaşıllıq zolaqları salınıb. Meyvə bağlarının salınmasında da yerli sortlara üstünlük verilib, lazımi aqrotexniki işlər görülüb, yerli şəraitdə yetişdirilmiş püstə tingləri ilə 2 hektar sahədə yeni püstə bağı salınıb.

Bildirilib ki, hesabat dövründə 3500 kiloqramdan artıq meyvə toplanaraq sanitar qırıntı işləri aparılması nəticəsində çıxan 270 kubmetr oduncaq hərbi hissələrə təhvil verilib.

Diqqətə çatdırılıb ki, görülən tədbirlərin nəticəsi olaraq muflon, bezoar keçiləri və su quşlarının say tərkibində artım dinamikası müşahidə edilib, nadir növ olan bəbir ailələrində yeni fərdlər qeydə alınıb. 2021-ci ilin yanvar-fevral aylarında biotexniki tədbirlər icra edilib, 3300 kiloqram daşduz, 200 kipdən artıq qaba yem, 5200 kiloqram meyvə-tərəvəz məhsulları ərazilərə paylanıb.

Vurğulanıb ki, 2021-ci ildə təbii sərvətlərdən istifadəyə, çirkləndirici maddələrin ətraf mühitə atılması və axıdılmasına görə Naxçıvan Muxtar Respublikası ərazisində fəaliyyət göstərən 61 müəssisəyə 81 min 861 manat məbləğində ekoloji ödəniş tətbiq olunub və bunun 65 faiz icrası təmin edilib.

Kollegiya iclası məruzə ətrafında çıxışlarla yekunlaşıb.

**Xəbərlər şöbəsi**





Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi – 50

# Gözəlliklər diyarımız yarıməsrlik rənglər palitrası ilə tərənnüm olunur

***Ölkəmizdə ulu öndər Heydər Əliyevin təməlini qoyduğu quruculuq strategiyası muxtar respublikanın inkişafını da təmin etmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun rəhbərliyi ilə bu qədim yurd yeri hərtərəfli inkişafa qovuşmuşdur. Əsaslı şəkildə yenidən qurulmuş Naxçıvan Muxtar Respublikası bugünkü və gələcək nəsillərə ən böyük töhfədir.***

Şəhər və kəndlərimiz abadlaşdırılmış, yeni yollar, körpülər salınmış, məktəblər, xəstəxanalar idman kompleksləri istifadəyə verilmişdir. Bütün yaşayış məntəqələrində müasir standartlara uyğun infrastruktur layihələri həyata keçirilmişdir. Belə müasir, gözəl görüntülər digər incəsənət insanları kimi rəssamların da yaradıcılığından yan keçməmiş, onlar şahidi olduqları bu yeniliyi, gözəlliyi öz əsərlərində əks etdirmişlər. Naxçıvanda yaşayıb-yaradan rəssamların, demək olar ki, hər birinin yaradıcılığında Naxçıvan mövzusuna rast gəlirik.

"Saat Meydanı"



Sabir Məmmədov



"Müasir yollar"

Hazırda Naxçıvanda yaşayıb-yaradan rəssamlardan Xalq rəssamı, professor Hüseynqulu Əliyevin "Naxçıvan bağları", Azərbaycan Respublikasının Əməkdar rəssamları Ülviyyə Həmzəyevanın "Başəriyyətin beşiyi", Həsən Qurbanovun yaradıcılığında "Naxçıvan", "Gənclik parkı", "Qədimlik və müasirliyin vəhdəti", Telman Abdinovun "Naxçıvan", Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamları Səyyad Bayramovun "Qədim və müasir Naxçıvan", Əli Səfərovun "İşıqlı Naxçıvan gecəsi", Həmzə Sadiqovun "Heydər Əliyev Muzeyi", "Gülüstan türbəsi", Həbibə Allahverdiyevanın "Çiçəkli eyvan", "Muxtariyyət yolu", Cavid İsmayılovun "Naxçıvan-95", akvarel texnikası ilə Naxçıvanın müasir görünüşünə aid çoxlu sayda etüdlərə imza atan Sabir Məmmədovun "Qazançı körpüsü", "Haçadağ qış fəslində", "Saat Meydanı", "Müasir yollar", "Qarabağlar türbəsi", "Naxçıvan. Təbriz küçəsi", "Çiçəklənən Naxçıvan" və sair çoxsəpkili əsərləri, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Elman Cəfərovun "Novruz", istedadlı rəssamlarımızdan Qəhrəman Tağıyevin "Heydər Əliyev Muzeyinin gecə görüntüsü", Əlövsət Allahverdiyevin "İnkişaf", Ləman Məmmədovanın "Bayraq Meydanı" adlı rəng və kompozisiya bitkinliyi baxımından bir-birindən maraqlı, kolorit zənginliyi, üslub texnikası ilə fərqlənən bu əsərlərdə Naxçıvanın keçmiş dövründən bu günədək keçdiyi inkişaf yoluna nəzər yetirilib. Müasir Naxçıvanın görünüşünü əks etdirən əsərlər insanın ruhunu oxşayır, özünəməxsus lirik ahənglərlə, xəfif rəng keçidləri ilə verilən həmin əsərlərdə, sanki tamaşaçı tarixən uzaq keçmişdən bu günə qədər olan dövrü göz önündən keçirir və baş verən inkişafın bir daha şahidi olur.

Hazırda Naxçıvanda yaşayıb-yaradan gənc rəssamlardan Murad Nurlunun, Həbib Allahverdiyevin, Arzu Novruzovun, Fizzə Quliyevanın, Vüqar Mehdiyevin, Şəmsiyyə Zalovanın, Ruslan Zamanovun, Ələkbər Ələkbərovun və başqa rəssamların yaradıcılığında intibah dövrünü yaşayan Naxçıvan mövzusuna toxunulmuş, əsərləri ilə bir çox ölkələrdə sərgi və beynəlxalq rəsm festivallarında Naxçıvanın təbiətini, tarixini, mədəniyyətini, hərtərəfli inkişafını layiqincə təmsil edirlər.

Dünya rəssamlarının yaradıcılığına nəzər saldıqda müasir dövrdə əcnəbi rəssamların Naxçıvanın həm qədim, həm də müasir görünüşünü öz əsərlərində canlandırdıqlarının şahidi oluruq. Müasir şəhər təsvirlərini isə Türkiyə Respublikasından olan rəssamlardan Ayfər Uzün "Sivilizasiya", Nurbiyə Uzün, Nilufər İnaltonqun "Möminə xatın türbəsi", Hülya Sezginin "Naxçıvanqala", İran İslam Respublikasından isə Cəlaləddin Piraninin "Naxçıvanqala" əsərlərində Naxçıvanın müasir görünüşünün realist və ideya-məna yüklü avanqard təsvirinin şahidi oluruq.

Naxçıvanda 2012-ci ildən başlayaraq 2014, 2016, 2018-ci illərdə yüksək təşkilatçılıqla keçirilən "Naxçıvan – başəriyyətin beşiyi" adlı beynəlxalq rəsm festivallarında iştirak edən rəssamlar bu diyarın qədim tarixi, mədəniyyəti haqqında öyrəndiklərini və gördüklərini öz əsərlərində canlandırmışlar. Haqqında bəhs etdiyimiz əsərlər bir-birindən müasir üslub xüsusiyyətləri və tarixilik baxımından fərqlənməsi ilə diqqətəlayiqdir. Müasir Naxçıvan təsvirlərinin yerli və xarici ölkə rəssamlarının əsərlərində yer alması, qədim torpağın öyrənilməsi, tanıdılması, təbliği baxımından əhəmiyyətlidir.

Zamanın çətin sınaqlarından keçərək qədim tariximizi, adət-ənənələrimizi, milli dəyərlərimizi özündə əks etdirməklə müasir dövrümüzə gətirib çıxaran, onları yaşadan vətənpərvərlik hissləri ilə yoğurulan, zəngin təbiətimizi, müasir dövrün real mənzərəsini özündə əbədiləşdirən təsviri sənət nümunələrimiz həm də tarixi sənəddir, Naxçıvanın inkişaf tarixinin bədii təzahürüdür.

Tariximizin bədii əksini böyük sənətkarlıqla yaradan rəssamlar da hərtərəfli qayğı ilə əhatə olunublar. Belə ki, son illərdə Naxçıvan Muxtar Respublikasında təsviri sənət sahəsində görülən bir çox işlər bu qayğının bariz nümunəsidir. Rəssamlara fəxri adların, təqaüdlərin verilməsi, onların əsərlərindən ibarət kataloqların nəşri, sənətkarların əl işlərinin satışı və onların sərgilərinin keçirilməsi üçün yaradılan şərait, rəssamlara verilən emalatxanalar, yeni sərgi salonu, gənc rəssam kadrlarının yetişməsi üçün ali təhsil ocaqlarında Təsviri incəsənət və Rəngkarlıq ixtisaslarının yaradılması bunun əyani sübutudur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2021-ci il martın 2-də Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 50 illik yubileyinin keçirilməsi haqqında imzaladığı Sərəncam isə sənətimizə, Rəssamlar Birliyinin üzvlərinə göstərilən diqqətin daha bir ifadəsidir.

Heç şübhəsiz ki, bu tarixi Sərəncam işığında Naxçıvan təsviri incəsənət tariximiz, diyarımızın rəssamlıq məktəbinin özünəməxsus zəngin inkişaf yolu, ayrı-ayrı rəssamlarımızın sənətkarlıq üslubu və yaradıcılıq dəstxəti öyrəniləcəkdir.

**Həbibə ALLAHVERDİYEVA**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı***



Həmzə Sadiqov: "Gülüstan türbəsi"



Həsən Qurbanov: "Naxçıvan-95"



Həbibə Allahverdiyeva: "Çiçəkli eyvan"



Əli Səfərov: "İşıqlı Naxçıvan gecəsi"

## 15 iyul – Demokratiya və Milli Birlik Günü ilə bağlı tədbir



Türkiyə Respublikasının Naxçıvandakı Baş konsulluğunda 15 iyul – Demokratiya və Milli Birlik Gününün 5-ci ildönümü ilə bağlı keçirilən tədbirdə əvvəlcə ötən il 44 günlük Vətən müharibəsində və qardaş ölkədə 2016-cı il iyulun 15-də baş verən dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı qəhrəmancasına şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnləri səsləndirilib.

Tədbirdə Türkiyənin Naxçıvandakı Baş konsulu Məhmət Emin Kiraz çıxış edərək bildirib ki, tarixin ağır sınaqlarından üzüağ çıxan türk xalqı 2016-cı il iyulun 15-də böyük qəhrəmanlıq göstərərək ölkədə hərbi çevriliş cəhdinin qarşısını alıb. Əliyalın insanlar tankların, silahlı qiyamçıların qarşısına çıxaraq dövlətin, qanuni hakimiyyətin müdafiəsini təmin edib, demokratiyaya sadiqliyini göstərib. Türkiyənin dövlətçilik tarixinə qəhrəmanlıq salnaməsi kimi yazılan həmin gün hakimiyyət-xalq birliyinin möhkəm həmrəyliyi sayəsində dövlət çevrilişi cəhdinin qarşısı alınıb. Bu zaman Türkiyə 251 şəhid verib.

Qeyd olunub ki, şəhidlərin əziz xatirəsini anmaq üçün qazilərə ehtiram əlaməti olaraq keçirilən bu tədbirin əsas məqsədi də dövlət çevrilişinin necə baş verdiyini dərindən öyrənmək, bu çevrilişin əsas səbəbkarının əməl və məqsədlərini ortaya çıxararaq gələcək nəsillərə düzgün şəkildə çatdırmaqdır.

Vurğulanıb ki, dövlət çevrilişi cəhdindən artıq 5 il ötür, bu dövrdə bir sıra beynəlxalq təşkilatlar və ölkələr Türkiyənin haqq səsinə səs verərək baş verən hadisəyə düzgün münasibət göstəriblər. Azərbaycan hadisənin baş verdiyi andan öz dəstəyini qardaş ölkədən əsirgəməyib. Dövlət çevrilişi cəhdinin 5-ci ildönümü ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana göndərdiyi məktubda iki qardaş ölkənin birliyindən və bu birliyin sarsılmazlığından xəbər verir.

Çıxışda ölkələrarası dostluq və tərəfdaşlığın daha da möhkəmlənməsində Azərbaycanın Naxçıvan Muxtar Respublikasının rolundan da danışılıb.

Sonra mövzu ilə bağlı fotosərgiyə baxış olub.

**Nail ƏSGƏROV**

## Çağırışçılar müddətli həqiqi hərbi xidmətə yola salınır



Prezident cənab İlham Əliyevin iyunun 17-də imzaladığı Azərbaycan Respublikası vətəndaşlarının 2021-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında Sərəncamına əsasən Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində çağırışçıların müddətli həqiqi hərbi xidmətə yola salınmasına başlanılıb.

Sərəncama uyğun olaraq 2003-cü ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla,) 18 yaşı tamam olmuş, habelə 1986-2002-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2021-ci il iyulun 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılır.

Bundan başqa, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2021-ci il iyulun 1-dən 30-dək ehtiyata buraxılır.

Tədbirdəki çıxışlarda gənclərə hərbi xidmət dövründə nizam-intizamlı və ayıq-sayıq olmaq, hərbi texnikanın sirlərinə mükəmməl yiyələnmək, əcdadlarının keçdiyi şərəfli yolu qətiyyət və qürurla davam etdirmək tövsiyə olundu.

Silahlı Qüvvələrimizin şəxsi heyətlə komplektləşdirilməsi məqsədilə müəyyən edilmiş qrafik əsasında Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti tərəfindən çağırışçılar xidmət yerlərinə yola salınıblar.

Xatırladaq ki, gənc əsgərlər müvafiq qoşun növlərinin hərbi hissələrinə – təlim mərkəzlərinə göndərilərək 3 ay müddətində orada təlimlər keçəcək, hərbi sirləri öyrəndikdən sonra xidmətlərini təyin olunduqları yerlərdə davam etdirəcəklər.

***Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin mətbuat xidməti***

## II ixtisas qrupu üzrə qəbul imtahanı keçirilib

Dünən Dövlət İmtahan Mərkəzi tərəfindən II ixtisas qrupu üzrə ali təhsil müəssisələrinə qəbul imtahanı keçirilib. Respublikanın 22 şəhər və rayonunda təşkil olunan imtahan $10^{00}$-da başlanıb, 3 saat davam edib. İmtahanın keçirilməsi üçün, ümumilikdə, 75 imtahan binası, 1266 imtahan zalı, 75 ümumi imtahan rəhbəri, 249 imtahan rəhbəri, 1647 nəzarətçi-müəllim, 157 buraxılış rejimi əməkdaşı, 75 bina nümayəndəsi ayrılıb. İmtahanda 16 min 758 abituriyent iştirak edib ki, onların 15 min 126-sı Azərbaycan, 1632 nəfəri isə rus bölməsinin məzunudur.

Naxçıvan Muxtar Respublikasında imtahan Naxçıvan şəhərində 4 imtahan binasında təşkil edilib. İmtahanda 814 abituriyent iştirak edib. İmtahanın keçirilməsi üçün 67 zal, 12 rəhbər, 87 nəzarətçi ayrılıb. Abituriyentlərin rahat imtahan verməsi üçün hər bir şərait yaradılıb.

İmtahanın nəticələri *www.dim.gov.az* saytında elan ediləcək.

**Xəbərlər şöbəsi**

**“Şərq qapısı” — 100**

# Yüz ilin mətbuatı

Heç xatirimdən çıxmaz. İki böyük çamadan qəzetlə dolu idi. Atam hər dəfə bu çamadanı açar, yeni qəzet qoyar, bir də, sanki xəzinə qoruyurmuş kimi bağlayardı. Demək olar ki, bu proses gündəlik belə davam edərdi. Uşaq ikən bütün bunların nə olduğunu dərk etməzdim. Atam isə hər dəfə evə gələndən sonra masa arxasına keçər, sarı kağızlara elə hey nə isə yazardı. Böyüdükcə anladım ki, atam jurnalistdir. İşdən yorğun gəlməsinə baxmayaraq, sirdaş olduğu o sarı kağızlara tökülən sözlər isə çamadana yığılan qəzet səhifələrində yer alardı. Demək ki, atam o çamadanda yuxusuz gecələrinin zəhmətinin barını və nəhayətdə, doğma qəzeti – “Şərq qapısı”nı saxlayar, hifz edərdi. Fikrimdən heç jurnalist olmaq keçmədi. Müəllimlərim mənə öz peşələrini sevdirmişdilər – müəllimliyi. Elə bu ixtisasın da ardınca getdim. Lakin deyir sən saydığını say, gör fələk nə sayır. Düşünürəm ki, uşaqlıqda insan nəyi görür və təsiri altına düşürsə, o bilavasitə ruhuna sirayət edir. Beləcə, ruhum çəkib məni “Şərq qapısı”na apardı. Kim nə deyir desin,



jurnalistika bir eşqdir, qurtula bilməyəcəyin bir sevgidir. Elə ki girdabına düşdün, unut çıxacağını. Fəaliyyət o vaxt bitər ki, ruhun bədənini tərk edər. Bax belə bir sevdadır əsl jurnalist olmaq. Ömürlərinin son günündək sənətlərini yaşadan sevdalıları gördüm mən: Səxavət Kəngərlini, Sevindik Həmzəyevi, Eldar Əhmədovu, Cəfər Kərimovu, Cəfər Əliyevi, Cəlil Vəzirovu və atam Hacı Rəsulovu. Doğma qəzetimizin 100 illiyi ərəfəsində hər birini ehtiramla anırıq.

Bu gün muxtar respublikada yaşayıb-yaradan qələm sahiblərinin əksəriyyəti “Şərq qapısı” məktəbinə, bu məktəbdə öyrəndiklərinə borcludur. Bu gün fəaliyyətimi Naxçıvan Televiziyasında davam etdirsəm də, əlifbanı “Şərq qapısı” adlı müəllimim öyrədib. Azərbaycan mətbuat tarixində öz milli varlığını qoruyub saxlayan tək-tək qəzetlərdəndir “Şərq qapısı”.

Düz bir əsrdir, yol gəlir. Bu uzun yolçuluqda müxtəlif illərdə adını zorla dəyişsə olsa da,



yolunu dəyişmədi, usanmadı, tükənmədi. Zamanın rüzgarına tab gətirdi, yıxılmadı. Söz xiridarlarının, qələm aşiqlərinin dəyişməz ünvanı oldu. Ötən yüz ildə bu qapını kimlər açdı, bu qapıdan kimlər keçdi, nəsillər birbirini əvəz etdi. Ən yaxşı ənənələri qoruyub bir-birinə miras ötürdü. Bəli, məhz miras kimi ötürülən və əsası 100 il bundan öncə qoyulan köklü ənənənin üzərində intişar tapdı, böyüdü, qol-budaq atdı, nəhəng bir çinar oldu. Budur, indi 100 ilinin işığına toplaşmışıq – həmməslək kimi, qələm sahibi kimi, oxucu kimi...

“Şərq qapısı” qəzetinin 100 illik yubileyinin qeyd olunması barədə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri 2021-ci il 1 iyun tarixli Sərəncam imzalayıb. Sərəncam köklü ənənələrə sahib mətbu orqanının fəaliyyətinə verilən yüksək dəyər, bu illər ərzində qazandığı etimadın göstəricisi kimi böyük əhəmiyyət daşıyır.

Dövrünün güzgüsü rolunu oynayan qəzet gah cəbhədə bir əsgər kimi döyüşüb, gah nəğmələşib, şeirləşib ürəkləri fəth edib, operativ, dəqiq və qərəzsiz xəbərləri ilə oxucuların informasiyaya olan tələbatını ödəyib, əmək, elm adamlarının yaxın dostu, sirdaşı olub, oxunaqlı yazıları ilə əl-əl axtarılan mətbu orqan kimi sevilib, qiymət verilib, günümüzədək gəlib çıxıb.

Naxçıvanın 100 illik tarixini öz səhifələrində əks etdirən qəzet muxtar diyarın salnaməsidir. Bu salnaməni vərəqlədikcə, Naxçıvanın dünəni və bu gününü müqayisə etmək olur, qəzet səhifələrində Naxçıvanın addım-addım bugünkü inkişafa necə qovuşduğuna həm yazılar, həm fotolar vasitəsilə şahidlik edirik. 1990-cı illərin əvvəllərində, xüsusilə də 90-93-cü illərdə qəzetin müxtəlif nömrələrində nəşr olunan “Şəhərə çıxmağa utanıram”, “Qıtlıq bizi narahat edir”, “Çörək növbəsi”, “Su həsrəti”, “Sərnişinlər avtobus gözləyir”, “Balta yaman moddadır” sərlövhəli yazılar, tədricən, yerini muxtar diyarın inkişaf göstəricilərini özündə əks etdirən yazılara verir. “İnsan kor olmalıdır



ki, bütün bu yenilikləri görməsin”, “Naxçıvanda quruculuq işləri yeni mərhələyə qədəm qoyur”, “Regionların sosial-iqtisadi inkişafı Dövlət proqramı həyata keçirilir”, “Heydərabad qəsəbəsi şəhər siması alır” kimi ürəkaçan sərlövhələri həm də tarixi gedişatın əsas göstəricisi kimi xarakterizə etmək olar.

Bu mənada, “Şərq qapısı” qəzeti tədqiqatçılar üçün arxiv rolunu oynayan dəyərli mənbədir. Hansı ki, bu mənbə 100 illik fəaliyyət dönəmində özünün parlaq inkişafını müstəqillik illərində yaşadı. Müstəqilliyin işığından öz nurunu alan “Şərq qapısı” qəzetinin fəaliyyət imkanları genişləndirildi. Muxtar respublikanın sürətli inkişafı özünü qəzetin daha yaxşı və müasir formatda nəşrində də özünü göstərdi.

“Şərq qapısı” bir məktəbdir. Bütün fəaliyyəti dövründə gənc qələm sahiblərini yetişdirən bir ocaqdır. “Şərq qapısı” muxtar respublikada yaşayıb-yaradan ziyalıların, elm adamlarının, yaradıcı qüvvələrin tribunasıdır. “Şərq qapısı” Naxçıvan həqiqətlərini dünya informasiya məkanına çatdıran dəyərli, dəqiq və qərəzsiz bir mənbədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin orqanı olan “Şərq qapısı” indi həftədə



5 dəfə 1500 tirajla oxucularının görüşünə gəlir.

Azərbaycan mətbuatı tarixində özünəməxsus ənənələrə və çəkiyə malik olan “Şərq qapısı” qəzetinin səhifələrində Naxçıvanın hər gününün tarixi yazılır, eyni zamanda fotolarda əks olunur, gələcək nəsillərə çatdırılır. “Şərq qapısı” qəzetində bu gün təcrübəli jurnalistlərlə yanaşı, gənc yaradıcı qüvvələr də çalışır.

Qəzetçilik olduqca məsuliyyətli, dəqiqlik tələb edən bir sahədir. Göz nuru, aydın fikir, dərin müşahidə, geniş təhlil, düzgün yanaşma və ən əsası da sevgi tələb edir. Bu məsuliyyətli və şərəfli işdə “Şərq qapısı”nın bütün əməkdaşlarına uğurlar arzulayırıq.

***Yubileyin, müdrikliyin mübarək, doğma “Şərq qapısı!”***

**Ruhiyyə RƏSULOVA**
***Naxçıvan Televiziyasının baş redaktoru***

## Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi diqqətdə saxlanılır

Muxtar respublikada uşaqların qanunvericiliklə müəyyən edilmiş hüquqlarının və mənafelərinin qorunması ilə əlaqədar Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya tərəfindən 2021-ci il ərzində 30 uşaq müəssisəsində monitorinq aparılması planlaşdırılmışdır.

Hesabat dövründə 19 uşaq müəssisəsində monitorinq aparılmışdır. Monitorinqlərin nəticələri, o cümlədən aşkar edilmiş nöqsanlar ekspert qrupunun üzvləri tərəfindən aktlaşdırılmış və aradan qaldırılması ilə bağlı tədbirlər görülərək komissiyaya məlumat verilmişdir.

Məlumat üçün bildirək ki, muxtar respublikada hazırda hər iki valideynini itirmiş 35, valideyn himayəsindən məhrum isə 36 uşaq vardır. Ümumilikdə, bu kateqoriyaya aid olan uşaqların sayı 71-dir. Belə ki, 2021-ci ilin ötən dövrü ərzində muxtar respublikada 6 uşaq qəyyumluğa və himayəyə verilmişdir.

Muxtar respublikada uşaq hüquqlarının qorunması istiqamətində görülən tədbirlər çərçivəsində Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiya tərəfindən il ərzində himayəyə və qəyyumluğa verilən uşaqların evlərində monitorinqlər təşkil olunmuş, yaşayış şəraitləri öyrənilmiş, zəruri ehtiyacları üçün lazımi köməklik göstərilmişdir. Görülən işlərin davamı olaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti yanında Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın ekspert qrupu və yerli icra hakimiyyətləri yanında Qəyyumluq və Himayə komissiyalarının üzvləri tərəfindən Naxçıvan şəhəri, Ordubad, Culfa və Şərur rayonları üzrə 9 hər iki valideyni itirmiş, 5 valideyn himayəsindən məhrum olmuş uşaq olmaqla, ümumilikdə, 14 müvafiq kateqoriyadan olan və 1 sağlamlıq imkanları məhdud uşağın yaşadığı evlərdə monitorinqlər təşkil olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Açıq havada kino nümayişləri davam edir

***Naxçıvan Dövlət Film Fondu “Əyləncə adası” İstirahət Parkında açıq havada “Bir cənub şəhərində” bədii filminin nümayişini təşkil edib.***



Film çox da böyük olmayan cənub şəhərlərindən birinin adamları, onların həyatı və əməyi haqqındadır. Burada hələ də insanların şüurunda keçmişin qalıqlarının kök salması, insanın mənəvi azadlığa necə böyük çətinliklə çıxması məsələləri ön plana çəkilib. Filmin mərkəzində yeniliklə köhnəliyin mübarizəsi, insanın köhnəlmiş adətlərin əsarətindən xilas olması prosesi durur.

Filmin çəkilişləri Təzəpir məscidinin ətrafında yerləşən məhəllələrdən birində aparılıb. Filmin uğurlu alınmasının bir səbəbi də yaradıcı heyətdə yeni düşüncəli, azad gəncliyin toplanması idi.

Film 1969-cu ildə “Azərbaycanfilm” kinostudiyasında istehsal olunub. “Bir cənub şəhərində” filminin quruluşçu rejissoru Eldar Quliyev, quruluşçu operatoru Rasim Ocaqov olub. Baş rolları Həsən Məmmədov, Eldəniz Zeynalov, Məcid Dadaşov, Hacımurad Yegizarov, Natella Adıgözəlova və başqaları ifa edirlər.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

***Yaponiyanın paytaxtı Tokioda keçiriləcək XXXII Yay Olimpiya Oyunlarının startına yeddi gün qalır. Artıq idmançılar dünyanın ən mötəbər tədbirinə hazırlıqlarının son mərhələsindədirlər. Tokio-2020 Yay Olimpiya Oyunlarında Azərbaycan millisi böyük heyətlə təmsil olunacaq.***

## Boksçumuz Olimpiya Oyunlarına hazırlaşır



Gündoğan ölkəyə yollanacaq kişi boksçulardan ibarət Azərbaycan milli komandasının heyətində Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının yetirməsi Tayfur Əliyev də yer alıb. İdmançımız ötən il Böyük Britaniyanın paytaxtı Londonda keçirilən Avropa Olimpiya təsnifat turnirində Olimpiadaya lisenziya qazanmışdı. Hazırda dəri əlcək sahibimiz Azərbaycan milli komandasının heyətində İtaliyanın Assizi şəhərindəki Boks Akademiyasında beynəlxalq təlim-məşq toplanışında iştirak edir. Son hazırlıqlar barədə Tayfur Əliyevin fikirlərini öyrəndik: “Lisenziya qazandıqdan sonra məşqlərə ara vermədən davam edirəm. Mart ayında Türkiyə Cümhuriyyətində milli komandanın təlim-məşq toplanışı keçirildi. Bu toplanışda Argentina, Türkiyə və Ukrayna millilərı ilə birgə məşqlər 21 gün davam etdi. İstanbulda keçirilən turnirdən sonra qısa müddət ərzində Bakıda məşqlər keçirildi, ardınca Özbəkistana yollandıq. Burada çox çətin hazırlıq dönəmi keçirdik. Məlumdur ki, özbək boksçular dünyanın ən güclü dəri əlcək sahibləri hesab edilirlər və bu təlim-məşqə onlar hər çəki dərəcəsində 5 idmançı ilə qatılmışdılar. Bizimlə yanaşı, İordaniya və Əlcəzair milliləri də bu məşq proseslərində iştirak edirdi. Pandemiya səbəbindən dayandırılan Avropa təsnifat turniri Fransada yenidən təşkil olundu və burada Olimpiadaya vəsiqəm təsdiqini tapdı. Yenidən Bakı səfərindən sonra iyul ayının 4-də İtaliyaya gəldik və son hazırlıqlarımızı davam etdiririk. Buradakı toplanışa 10-dək ölkə qatılıb. Artıq Fransa millisi geri dönsə də, İtaliya, Kolumbiya, Hindistan, Ekvador, Peru və digər millilərlə birgə məşqlər davam edir. Hazırlıqlar yaxşı keçib və inanıram ki, Yaponiyada keçiriləcək Olimpiadada uğur qazanacağıq. Əsas məqsədim Tokioda çempion olmaq və Azərbaycan bayrağını dalğalandırıb Naxçıvanın boks ənənələrini dünyaya çatdırmaqdır”.

Qeyd edək ki, Azərbaycan boks millisi Yaponiyaya 5 lisenziya qazanıb. Yay oyunlarında boks yarışları iyulun 24-də start götürəcək və avqustun 8-də bitəcək. Döyüşlər “Ryoqoku Kokuqikan” İdman Sarayında keçiriləcək.

## Kikboksinq üzrə muxtar respublika turniri

***Azərbaycanın Milli Qəhrəmanı Yusif Mirzəyevin xatirəsinə həsr olunan kikboksinq üzrə uşaqlar arasında keçirilən Naxçıvan Muxtar Respublika turnirinə yekun vurulub.***



Turniri keçirməkdə məqsəd Yusif Mirzəyevin xatirəsinin yad edilməsi, kikboksinq idman növünün muxtar respublikada inkişaf etdirilməsi, yeniyetmə və gənclər arasında təbliği, kikboksinq üzrə fəaliyyət göstərən bölmələrin və klubların işinin təkmilləşdirilməsi, həmçinin bu növün kütləviliyinə nail olunmasından ibarət idi.

Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya İdman Kompleksində keçirilən turnirdə 150-yə yaxın idmançı mübarizə aparıb. Reqlamentə əsasən idmançılar 7-8 (18, 20, 22, 24, 26, 28 və 32 kiloqram), 9-10 (24, 26, 28, 30, 32, 36, 39 və +39 kiloqram) və 11-12 yaş qruplarında (28, 30, 32, 35, 38, 42, 47 və 52 kiloqram) rinqə çıxıblar.

Sonda qaliblər təşkilatçılar tərəfindən mükafatlandırılıblar.

**Ceyhun MƏMMƏDOV**

### İtmişdir

Naxçıvan şəhəri, Qaraçuq kəndində yaşamış Yusifova Səkinə Məmmədcəfər qızının adına olan JN-247A inventar nömrəli “Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə” itdiyindən etibarsız sayılır.

***

Əlizadə Zəhra Afət qızının adına Naxçıvan Tibb Kolleci tərəfindən verilmiş diplomun qiymət cədvəli itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Nehrəm kənd sakini Qurbanov Yavər Hüseyn oğlunun adına verilmiş JN-0016 nömrəli, 10300058 kodlu torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**
**Baş redaktor:**
**MEHRİBAN SULTANOVA**

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**
*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Ramiyyə Əkbərova**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*
**Tiraj: 1500. Sifariş № 569**